# Şuşada TÜRKSOY-a üzv ölkələrin UNESCO üzrə Milli komissiyalarının 9-cu iclasının bağlanış mərasimi keçirilib

Aprelin 8-də türk dünyasının mədəniyyət paytaxtı olan Şuşa şəhərində Azərbaycan Respublikası Prezidenti yanında UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının TÜRKSOY-a üzv ölkələrin UNESCO üzrə Milli komissiyalarının 9-cu dövr üçün sədrliyi çərçivəsində sözügedən Milli Komissiyanın Daimi Katibliyi, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY), ADA Universiteti və Universitetin İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə TÜRKSOY-a üzv ölkələrin UNESCO üzrə Milli komissiyalarının 9-cu iclasının bağlanış mərasimi keçirilib.








AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov işğaldan azad olunmuş Şuşa şəhərində tarixi və mədəni irsimizə qarşı Ermənistan tərəfindən törədilmiş vandalizm aktları, həmçinin Azərbaycan dövləti tərəfindən burada həyata keçirilən bərpa-quruculuq işləri ilə bağlı tədbir iştirakçılarına məlumat verib.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Qarabağ İrsini Araşdırma Mərkəzinin rəhbəri, beynəlxalq münasibətlər üzrə professor, siyasi elmlər doktoru Elçin Əhmədovun müəllifi olduğu "Şuşa - Azərbaycanın Tarixi və Strateji Əhəmiyyətli Mədəniyyət Paytaxtı" adlı kitabın təqdimatı keçirilib.

Bağlanış mərasimində TÜRKSOY-un üzv ölkələrini, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Türkmənistan və Özbəkistan, eləcə də Beynəlxalq Türk Akademiyası, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Türkdilli Ölkələrin Parlament Assambleyası, Macarıstan və Monqolustanı təmsil edən 35 iştirakçıya sertifikat və hədiyyələr təqdim olunub.

Mərasimdə Azərbaycan Respublikasının UNESCO üzrə Milli Komissiyası və ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutu tərəfindən ölkəmizdə sayca ikinci dəfə təşkil edilən təlim proqramının iştirakçısı olan Benin, Niger, Toqo, Burkina Faso, Qvineya, Qabon, Cibuti, Kot-d'İvuar və Ekvatorial Qvineyanın UNESCO üzrə Milli komissiyalarının baş katibləri qonaq qismində iştirak ediblər.

Bağlanış mərasimindən sonra xarici qonaqlar Şuşa şəhəri ilə tanış olublar. Onlar Şuşa şəhər mərkəzi meydanı, Qala divarları, Cıdır düzü və Molla Pənah Vaqifin muzey-məqbərə kompleksini ziyarət ediblər. Şuşaya səfərdə iştirak edən iclas iştirakçıları və Afrika ölkələrinin UNESCO Milli komissiyalarının baş katibləri Şuşanın ecazkar təbiətinə və qədim tarixinə heyran qalıblar.

Tədbir Xalq artisti Mənsum İbrahimovun rəhbərliyi ilə "Qarabağ" muğam qrupu tərəfindən təqdim edilən konsert proqramı ilə sona çatıb. Konsert proqramında həmçinin Aytən Məhərrəmova və Sona Əzizovanın ifasında müxtəlif mahnılar səsləndirilib. Təqdim edilən ifalar dinləyicilərdə xoş təəssürat yaradıb.

Azərbaycan.- 2023.- 9 aprel.- S.3.